**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 30 (2064) 7 mart 2020-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASIYA VASITƏLƏRININ
İNKIŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# "O dünyaya köçən dünyam..."

## Şahmar Əkbərzadəni xatırlayarkən

**(əvvəli ötən saylarımızda)**

**Şahmar övladlarını çox sevərdi. Üç oğlu, bir qızı vardı. Onun qəlbində nəvəsinin öz yeri vardı. Mən Şahmarın oğlu Əkbərin və qızının toyunda iştirak etdiyimi, Bəxtiyar Vahabzadə ilə ”əlli-əlli vurduğumuzu” indi də xatırlayıram...**

Şahmar ”Azərbaycan gəncləri” qəzetindən sonra bir müddət ”Kommunist” (sonralar ”Xalq qəzeti” adlandırılan) qəzetində çalışdı. Biz yenə mütəmadi görüşür, dərdləşir, fikir mübadiləsi aparırdıq.

Bir dəfə Şahmar söhbət əsnasında dedi:

**-Polad Bülbüloğlu ilə bir tədbirdə görüşdük. Mənə təklif etdi ki, gəl Mədəniyyət Nazirliyinin nəzdində bir qəzet yaradaq, sən də ol Baş redaktor. Dədə, bilmirəm bu təklifə nə cavab verim? Qalmışam odla su arasında...**

Gülüb dedim:

**-”Hə” de, qurtarsın getsin. Ta niyə özünə dərd edirsən ki?**

Şahmar diqqətlə üzümə baxıb dedi:

**-Yaxşı, dədə, onda belə edək... Mən Polada razılıq versəm, gərək sən də mənim təklifimə razılıq verəsən.**

**-O nə təklifdir elə?**

**-Yeni qəzetdə birlikdə işləyək.**

Mən dedim:

**-Mənim burada, Akademiyadakı işlərim pis deyil. Elmi tədqiqatla məşğul olur, aspirantlara, tələbələrə dərs deyirəm, radio-televiziyada verilişlər aparıram...**

Şahmar dilləndi:

**-Yaxşı, onda əməkdaşlıq edəcəyinə söz ver. Qəzetin qonorarı da olacaq.**

**-Hə, ona baxarıq,- deyə cavab verdim...**

Mən təzə nəşrə başlayan ”Mədəniyyət” qəzetinə tez-tez məqalələr yazmağa başladım.

Sonralar, aradan bir xeyli müddət keçəndən sonra Şahmar mənə dedi:

**- Dədə, onsuz da vaxtın boldur. Özün də maşallah, enerjili adamsan. Bir də görürsən mən günlərlə buralarda olmuram, qəzetin çapı ləngiyir. Gəl, bu qəzetdə əl-ələ verib işləyək.**

Beləliklə, mən bir müddət qəzetdə Baş redaktorun müavini, sonralarsa Baş redaktor vəzifəsinin icraçısı oldum...

Günlərin bir günü səhər tezdən redaksiyaya gələrkən eşitdiyim xəbər məni sarsıtdı: ”Şahmar dünən axşam vəfat edib...”

Budur, indi gündəliyimin və ”Mədəniyyət” qəzetinin saralmış səhifələrini vərəqləyirəm. Həmin günlərin acı təəssüratı Şahmarın ömrü kimi saralıbsolmuş vərəqlərdə və yaddaşımda yaşayır.

1 Sentyabr 2000-ci il. ”Gündəlikdən” sətirlər.

Sentyabr ayının 1-dir. Bu gün Şahmarın sevimli nəvəsinin ad günü olmalıdır.

Amma Şahmar daha yoxdur.

Səhər tezdən radaksiyaya gələrkən əməkdaşların üzündəki qəribə, hüznlü ifadənin səbəbini öyrənməyə çox vaxt tələb olunmadı. Kimsə astadan dedi: ”Şahmar müəllim dünyasını dəyişib”. Sanki dünya başıma hərləndi...

Şahmarın mənzili redaksiyanın yerləşdiyi binanın yaxınlığındadır. Bu beşaddımlıq yolu getmək mənə dağlar aşmaq, yoxuşlar qalxmaq qədər çətindir.

### “ƏCƏL YAMAN QOVUR MƏNİ...”

Onunla görüşüb ayrılmağımızdan cəmi bir gün keçib. Belə götürəndə bizi ayıran zamanın məsafəsi günlə yox, saatlarla, dəqiqələrlə hesablana bilər.

Bu söhbət, bu dialoq da dünən olmuşdu:

**- Salam.**

**- Salam, dədə! Necəsən?**

**- Babat...**

Bəli, dünənki, yəni avqustun son günündəki səhərimiz də həmişə olduğu kimi, bu cür ”ənənəvi” mükalimələrlə açıldı.

Bir az ordan-burdan söhbət etdik.

Dedi:

**- Maşallah, gözümə yaxşı dəyirsən, dədə...**

**- Dünənkinə baxanda, sən də bu gün qıvraq görünürsən.**

Ürəkdən güldü:

**- Elədir... Dədə, evdəkilərə bildirmədim, dünən halım lap xarab idi... Az qala keçinmişdim...**

**- Allah eləməsin. Niyə? Nə olmuşdu ki?..**

**-Əşi, bütün gecəni futbola baxmışam... Qapı-pəncərələr də açıq... Sonra özüm-özümü danlamışam ki, bu nə cavanlıqdı edirəm... Ta qoca kişiyəm... Niyə özündən muğayat olmursan, ay qoca Şahmar? Düz demirəm?...**

...Budur, indi həmin günün, yən 30 avqustun təəssüratı maqnitofon lenti kimi qulaqlarımda səslənir, kino lenti kimi gözlərim önündən gəlib keçir... Biz o gün nələrdən, kimlərdən danışdıq?..

Hansı mövzulardan söhbət açdıq?.. Onu nəsə incidən bir hadisə baş vermişdi ki?.. Bəlkə kiməsə hirslənmiş, əsəbləşmişdi?..

Şahmar Əkbərzadəni tanıyanlar yaxşı bilir ki, o təbiətən coşğun, çılğın, emosional adam idi. Bəzən adi bir sözdən alınar, əsəbiləşər, tez reaksiya verərdi...

Amma həmin gün onun ovqatı yaxşı idi. Deyib-gülürdü. Bir-iki gündən sonra Kiprə - poeziya festivalına gedəcək...

30 avqustda biz onunla yenə ədəbiyyat, poeziya barədə söhbətləşdik. Yeni əsərlərdən danışdıq...

...Onun öz təkidi ilə ”Mədəniyyət”ə təqdim etdiyim, hissə-hissə çap olunan ”Müqəvva” pyesini təriflədi.

...Hər gün olduğu kimi, yenə Qarabağdan söhbət düşdü. Kimlərisə qınadıq, kimlərisə söydük. Evinə zəng vurdu - nəvəsinin 4 yaşı tamam olurdu,



axşamı ”yubileyə” getməyə hazırlaşırdı...

...Qəzetdə gedəcək materiallara göz gəzdirdik...

...Qonorar və maaş cədvəlini nəzərdən keçirdik...

... Bəstəkar Rəşid Şəfəq gəldi; yeni mahnılardan söhbət düşdü...

... Və nəhayət, saat dörd radələrində görüşüb-öpüşüb ayrıldıq. Mən hələ redaksiyada qalıb işləmək istəyirdim...

Həmin günün olaylarını yada salanda qəribə bir epizodu da xatırlayıram: arada Şahmar söhbət edə-edə açıq pəncərəyə yaxınlaşaraq yaxınlıqda yerləşən ”Yasamal qəbiristanlığına” sarı boylanıb dedi:

**- Dədə, dünən bir şeir yazmişam. Özü də deyəsən, şedevr alınıb.**

**- Sənin yazdığın şeir başqa cür ola bilməz ki... İstəyirsən, oxu. Qoy qulağımız təzə bir söz eşitsin...**

**- Yox, dədə, qalsın sonraya... Bir də ki, o şeir oxumaq üçün deyil.**

Mənim təəccübümü görüb gülümsədi:

**- Sinə daşına yazılacaq... Bir yaxın adamın xahişi ilə düzüb-qoşmuşam...**

Mən tutuldum:

**- Epitafiya da şeir formasıdır... Nə olar ki...**

O, mənim nəyə işarə etdiyimi duyubmuş kimi qəhqəhə çəkib güldü. Bunun da öz səbəbi vardı: iki-üç gün əvvəl tez-tez ithaf şeirləri yazan bir şair dostumuz yaxın vaxtlarda rəhmətə getmiş tanışına həst etdiyi təzə şeiri redaksiyaya gətirmişdi. Şahmar şeiri oxuyub müəllifə demişdi:

**- Sən canın, rəhmətə gedənlərə az şeir yaz...**

İndi hər ikimiz həmin hadisəni xatırlamışdıq. Şahmar mənə baxıb gülümsədi:

**- İnnən belə ölənlər haqda şeir yazmayacağam, dədə...**

Görəsən bu, nə idi? Alın yazısı, yoxsa ürəyə damma? Tale, yoxsa qəzavü-qədər?.. Bilmirəm. Bircə onu bilirəm ki, hər təzə şeirini sevinə-sevinə oxuyan Şahmar həmin gün sinədaşına yazdığı misraları - epitafiyanı oxumadı, bunu sonraya saxladı. Və mən indi bu sətirləri yazarkən bir neçə gün öncə ”Haqqa pəncərə” kitabını vərəqləyə-vərəqləyə arabir öz şeirlərinin şah misralarını oxuyan Şahmar Əkbərzadənin gur səsini yenidən eşidirəm:

**Ovut bircə hovur məni,**
**Əcəl yaman qovur məni...**

Şahmar Qarabağ faciəsindən dolayı çox dərd çəkirdi. ”Dərd çəkir” ifadəsi onun keçirdiyi ağrılarla müqayisədə əlbəttə, çox yumşaq səslənir. O, baş verənlərlə heç cür razılaşa, barışa bilmirdi:

**- Dədə, mən palıd kimi sağlam adamam. Məni öldürsə, Qarabağın dərdi öldürəcək. Xudu da o dərddən öldü. Amma istəyirəm ki, Qarabağ azad olandan sonra ölüm.**

Gündəlikdən sətirlər.

### “SƏNİ HARDAN ALIM İNDİ?”

Dostumun yoxluğu ilə heç cür barışa bilmirəm...

Hüzr məclisinə gələnlərin hüznlü üzlərinə baxıram. Bu dərd hamını yandırıb-yaxır, qovurur. Hamı Şahmarın taleyindən, poeziyasından, dostluğundan təəssübkeşliyindən danışır.

**(ardı növbəti sayımızda)**

**Firuz Mustafa**

